# Nəsimi rayonu: Gül bayramı insanlarda xoş ovqat yaratdı




...Qəlbləri oxşayan may səhəri. Gündən-günə gözəlləşən Bakının Nəsimi rayonunda əsl bayram təntənəsi duyulur, müəllim və şagirdlər, bağça uşaqları, müharibə və əmək veteranları, rayon ziyalıları, millət vəkilləri, çoxsaylı qonaqlar milli öndərimiz, dahi şəxsiyyət, ürəklərdə işıq heykəlinə çevrilən Heydər Əliyevin anadan olmasının 92-ci ildönümü ilə bağlı Vaqif prospekti ilə Səməd Vurğun küçələrinin kəsişməsindəki parka axışırdılar. Dünya standartlarına cavab verən parkın geniş ərazisində iynə atsan yerə düşməzdi, mərkəzi yolun sağında və solunda məktəb, uşaq bağçasında şagirdlərin və eləcə də məktəbəqədərki uşaq müəssisələrindəki balaca fidanların incə əlləri, dərin təfəkkürləri, fitri istedadları ilə al-əlvan güllərdən hazırlanmış əl işləri, rəsm əsərləri tamaşasına gələn insanların qəlbində bol-bol fərəh, sevinc yaradırdı.

İşıqlı düha sahibi, dahi şəxsiyyət, ümummilli liderimiz Heydər Əliyevin tər güllərdən hazırlanmış portretləri, güllərə həkk olunmuş müdrik sözləri baxanları heyran edirdi.

Hər məktəbin Gül bayramında hazırlanan əl işləri adamı nağıllar dünyasına aparırdı. Çoxları baxa-baxa xəyala dalırdı. XXI əsrin uşaqları gülüzlü balalar, doğrudan da möcüzələr yaradırdılar.

Hər məktəb Gül bayramında səliqəli, könülləri riqqətə gətirən əl işləri ilə diqqəti cəlb edirdi. Xüsusilə milli geyimlərdə olan kiçikyaşlı uşaqların Gül bayramında, milli öndərimiz Heydər Əliyevlə bağlı söylədikləri şeirlər, oxuduqları oynaq mahnılar, dövrə vurub rəqs etmələri yaddaşlara həkk olunurdu. Hamı əhsən deyirdi, özü də Gül bayramında 211 saylı məktəbin şagirdləri tərəfindən hazırlanmış müxtəlif əl işləri, güllərdən hazırlanmış kompozisiyalar nümayiş etdirildi. Hətta çiçəklərdən paltarlar da hazırlanmışdı. Məktəbin direktoru Vaqif Babayev vurğuladı ki, bütün bunlar məktəblilərin ürəklərdə işıq heykəlinə çevrilən Heydər Əliyevə olan sonsuz məhəbbətinin bariz nümunəsidir.

159 saylı məktəbdə (direktoru Vahid Xəlilov), 133 nömrəli məktəbdə (direktoru Füzuli Həsənov), 266 nömrəli məktəbdə (direktoru Fərqanə Əliyeva), 54 nömrəli məktəbdə (direktoru Sahibə Abbasova) şagirdlərin əl işləri, güldən hazırladıqları geyimlər və digər kompozisiyalar diqqəti cəlb edirdi.

Bizim Gül bayramında ilk müsahibimiz Nəsimi Rayon İcra Hakimiyyəti başçısının müavini Gülarə Verdiyeva oldu. O vurğuladı ki, tədbirlər planına əsasən rayonda Gül bayramına geniş hazırlıq işləri aparılmış, milli öndərimiz Heydər Əliyevin anadan olmasının 92-ci ildönümü ərəfəsində şənbə və bazar günləri ekoloji tarazlığı qorumaq məqsədilə iməciliklər keçirilmişdir. Bu gün Gül bayramına 100 mindən artıq təbii güldən istifadə olunub, 7 mindən çox əl işləri və kompozisiyalar nümayiş etdirilir.



Biz parkda keçirilən Gül bayramında iştirak edən insanların ürək sözlərini qələmə aldıq.

**Kənan Məmmədov (Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə rayon idarəsinin rəisi):**

—Bu gün Gül bayramında iştirak edən digər insanlar kimi, mən də qürur hissi keçirirəm. Güldən möcüzələr yaradan məktəblilərin əl işləri adamı heyran qoyur. Bunun üçün ilk növbədə şagirdlərin təlim-tərbiyəsi ilə məşğul olan müəllimlərə minnətdarıq.

**Laçın Mustafayev (MKTB-nin rəisi):**

—Nəsimi Rayon İcra hakimiyyətində hər il Gül bayramı yüksək səviyyədə həyata keçirilir. Ulu öndərimiz Heydər Əliyevə xalqımızın məhəbbəti tükənməzdir. Bu gün keçirilən Gül bayramı doğrudan da insanlarda xoş ovqat yaradır. Rayon icra hakimiyyətinin Təsərrüfat şöbəsi tərəfindən hazırlanan Azərbaycan milli ornament Buta Bayrağı, içərisi təbii konfetlərlə bəzədilmiş bu əl işi hamını heyran etdi.

**Səbinə Xəlilova (evdar qadın):**

—Bu gün keçirilən ənənəvi Gül bayramında demək olar ki, bütün rayon sakinləri yüksək əhval-ruhiyyə ilə iştirak edirlər. Bu el şənliyində 2 qızım—Ləman və Lamiyə ilə iştirak edirəm. Ulu öndərimiz Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə həsr olunmuş belə bir möhtəşəm tədbir keçirildiyinə görə rayon icra hakimiyyətinin başçısı Nəsib Məhəməliyevə minnətdaram.

Bayram mərasimində **Nəsimi Rayon İcra Hakimiyyətinin başçısı Nəsib Məhəməliyev** ürək sözlərini tədbir iştirakçıları ilə bölüşərək dedi:

—Bakı şəhərində keçirilən I Avropa Oyunları ərəfəsində rayonda möhtəşəm Gül bayramını keçirməklə milli öndərimiz, dahi şəxsiyyət Heydər Əliyevə bir daha məhəbbət və sevgimizi bildiririk. Heydər Əliyev demokratik, müstəqil Azərbaycan dövlətinin yaradıcısıdır. Heydər Əliyev parlaq zəkası və nurlu əməlləri ilə hərtərəfli inkişafın yeni mərhələsinə yol açmış və bütün dünya dövlətlərinin diqqətini cəlb etmişdir.

Ulu öndər Heydər Əliyevin müəyyən etdiyi dövlət idarəçiliyi strategiyası Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Gül Bayramında incəsənət ustaları maraqlı proqramla çıxış etdi.

**Qədir ASLAN,**
**"Respublika".**








